Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

HEYDƏR ƏLİYEV
MƏRKƏZİ

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

2025

# UŞAQ İNCƏSƏNƏT FESTİVALI

FESTİVALIN MƏLUMAT TOPLUSU

## ÜMUMİ MƏLUMAT

Bu topluda Uşaq İncəsənət Festivalı 2025 (bundan sonra - festival) təşkili və keçirilmə qaydaları müəyyən edilir.

Festival Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı keçirilir.

## FESTİVALIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Festivalın keçirilməsində əsas məqsəd Ümummilli Lider Heydər Əliyevin mədəniyyətə və gənclərə qayğısını rəhbər tutaraq, milli mədəniyyətin və incəsənətin təbliği, uşaqların milli vətənpərvərlik, mədəniyyətə, incəsənətə, milli adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsi, onlarda mədəni həyat tərzinin formalaşdırılması işinə köməklik göstərilməsidir.

Festivalın keçirilməsinin əsas vəzifələri uşaqlarda mədəniyyətin müxtəlif sahələrinə maraq oyadılması, onların məktəbdənkənar vaxtlarının səmərəli keçirilməsi, bədii- estetik zövqünün tərbiyə edilməsi, yeni istedadların üzə çıxarılması, regionlarda incəsənət sahəsində çalışan işçilərin fəallığının təmin edilməsi, xüsusi bacarığa malik olan uşaqların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsidir.

## FESTİVALDA İŞTİRAK QAYDALARI VƏ ŞƏRTLƏRİ

Festivalda iştirak 2 formada həyata keçirilir: fərdi və kollektiv.

Festivalda fərdi iştirak üzrə 6-17 yaş arası uşaqlar peşəkar (seçdiyi nominasiyaya uyğun təhsili olan) və həvəskar (seçdiyi nominasiyaya uyğun təhsili olmayan) olmaqla iki kateqoriya üzrə üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) iştirak edirlər.

Festivalda kollektiv iştirak üzrə 6-17 yaş arası uşaqlar üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) iştirak edirlər.

- Kollektivin bu yaş qrupundan birinə aid edilməsi aşağıdakı qaydada aparılır:

Kollektivin iştirakçılarının əksəriyyətinin müəyyən yaş qrupuna aid edildiyi halda kollektiv həmin yaş qrupuna aid edilir. Misal: Bir kollektivdə 6 nəfər var, onlardan 4 nəfəri 10-13 yaş aralığında, 2 nəfəri isə 6-9 yaş aralığındadır. Belə halda kollektiv 10- 13 yaş kateqoriyasına aid edilir;

- Kollektivin iştirakçılarının fərqli yaş qruplarına eyni sayda aid olduğu halda kollektiv onlar arasında ən yuxarı yaş qrupuna aid edilir. Misal: Bir kollektivdə 10 nəfər var, onlardan 5 nəfəri 14-17 yaş aralığında, 5 nəfəri isə 10-13 yaş aralığındadır. Belə halda kollektiv 14-17 yaş kateqoriyasına aid edilir.

Festivalda iştirak üçün yaş həddi festivalın qeydiyyat müddətinin son gününə uyğun hesablanır.

Hər iştirak formasına uyğun aşağıda qeyd olunan nominasiyalar mövcuddur:

- Fərdi iştirak üçün nominasiyalar: Milli rəqs (solo), Müasir rəqs (solo), Klassik simli alətlər; Klassik nəfəs alətləri; Azərbaycan xalq çalğı simli alətləri; Azərbaycan xalq çalğı nəfəs alətləri; Azərbaycan xalq çalğı zərb alətləri; Piano ifaçılığı; Qarmon ifaçılığı; Akademik vokal; Caz ifaçılığı; Estrada oxuma; Xanəndəlik sənəti; Aşıq sənəti; Rəssamlıq; Heykəltaraşlıq; Dekorativ - tətbiqi sənət; Səhnə ifaçılığı; Rəqəmsal incəsənət - (foto, video);
- Kollektiv iştirak üçün nominasiyalar: Milli rəqs (ansambl); Müasir rəqs (ansambl); Bal rəqs; Caz ifaçılığı; Xor.

Kollektiv iştirak halında nominasiyalar üzrə aşağıda göstərilən say aralığında iştirakçıların qeydiyyatı həyata keçirilə bilər:

- Milli rəqs ansamblı nominasiyası üzrə 4-20 nəfər;
- Müasir rəqs ansamblı nominasiyası üzrə 4-20 nəfər.
- Bal rəqsi nominasiyası üzrə 2-4 nəfər.
- Caz ifaçılığı nominasiyası üzrə 3-5 nəfər;
- Xor nominasiyası üzrə 12-20 nəfər;

Festivalda iştirak üçün qeydiyyat *www.uif.az* internet portalı vasitəsilə aparılır.

Fərdi iştirakçılar üçün qeydiyyat iştirakçının valideyni və ya qanuni nümayəndəsi tərəfindən, kollektiv iştirakçılar üçün isə kollektivin 18 yaşa çatmış rəhbəri tərəfindən həyata keçirilir.

Kollektiv rəhbəri yalnız 1 kollektivi qeydiyyatdan keçirə bilər.

Festival iştirakçısı yalnız 1 dəfə fərd olaraq və 1 dəfə də kollektiv daxilində qeydiyyatdan keçə bilər.

Bundan əvvəl festivalda birinci yerə layiq görülmüş şəxslər eyni yaş kateqoriyasında və eyni nominasiya üzrə təkrar müraciət edə bilməzlər.

Doldurulmuş və imzalanmış iştirakçı vərəqələri təşkilatçıların xüsusi ayrılmış nümayəndələrinə təqdim olunduğu halda, qeydiyyat bu nümayəndələr tərəfindən aparıla bilər.

Qeydiyyat prosesində həm iştirakçıların, həm də qeydiyyatı həyata keçirən şəxslərin şəxsiyyətini təsdiq edən məlumatlar, eləcə də digər zəruri məlumatlar təqdim olunmalıdır.

İştirakçı vərəqəsindəki məlumatların tam və düzgün olması ilə bağlı məsuliyyəti onları təqdim edən şəxs daşıyır. Məlumatları düzgün təqdim edilməyən iştirakçılar festivaldan kənarlaşdırılır.

Kollektiv müraciət əsasında müsabiqəyə dəvət olunmuş şəxslər yalnız portalda adları qeydiyyatdan keçmiş heyətlə çıxış edə bilərlər. Portalda adı olmayan şəxslərin kollektiv tərkibində çıxış etməsi qadağandır və bu hal müsabiqənin şərtlərinə zidd hesab edilir.

Kollektiv iştirakçılar müsabiqənin hər iki mərhələsində ardıcıl iştirak etməlidirlər. Hər hansı kollektiv üzvü iştirak etmədiyi təqdirdə, o, avtomatik olaraq müsabiqədən uzaqlaşdırılır və başqa iştirakçı ilə əvəz edilə bilməz.

**Festival üç mərhələdən ibarətdir:**

- Festivalın I mərhələsi 2025-ci ilin aprel-iyun ayında keçirilir. I mərhələdə qalib olmuş iştirakçılar Festivalın II mərhələsində iştirak etmək hüququ qazanırlar.
- Festivalın II mərhələsi 2025-ci ilin iyul-avqust ayında keçirilir. Bu mərhələdə qalib olmuş iştirakçılar final mərhələsində iştirak etmək hüququ qazanırlar.
- Festivalın final mərhələsi Bakı şəhərində 2025-ci il sentyabr ayında keçiriləcək. Final mərhələsinin keçirilmə yeri, tarixi və vaxtı barədə məlumatlar festivalın rəsmi internet portalında, eləcə də kütləvi informasiya vasitələrində elan olunur. Festivalın keçirilmə tarixləri rəsmi internet informasiya ehtiyatı və kütləvi informasiya vasitələrində elan olunmaq şərtilə festivalın gedişinə uyğun dəyişdirilə bilər.

Festivalda iştirak etmək istəyən xarici vətəndaşlar *info@uif.az* e-mail ünvanına müraciət edə bilər. Müraciətin mövzu hissəsində "Xarici vətəndaş" sözü qeyd olunmalıdır.

İştirakçılar barədə yekun nəticə münsiflər heyəti tərəfindən verilən qiymətlər əsasında müəyyən ediləcəkdir.

Festivalın yekununda ən çox nominasiya üzrə iştirak etmiş və fəallıq göstərmiş şəhər və ya rayon növbəti il festivala ev sahibliyi edəcəkdir.

## FƏRDİ NOMİNASİYALAR HAQQINDA MƏLUMAT

**Rəsm**

- Festivalın rəsm nominasiyası üzrə mövzu, janr və ölçü sərbəstdir (portret, peyzaj, natürmort);
- Təqdim edilən işin ideyası iştirakçının özünə məxsus olmalıdır;
- I mərhələyə təqdim edilən işlər tərtibat olmadan təqdim edilir. Təqdim olunan işlərin arxa hissəsinə çap olunmuş formada tərtibata xələl gətirmədən etiketlər yapışdırılmalıdır.

Etiket 9x12 sm ölçüdə olmalı, üzərində iştirakçının adı, soyadı, atasının adı, yaşı, təhsil aldığı təhsil müəssisəsi, nominasiyanın adı, təqdim etdiyi iş haqqında məlumatlar Arial şrifti ilə 12 ölçüdə yazılmalıdır;

- II mərhələyə qəbul edilən qalib işlər tərtibatla təqdim edilir. Bütün işlər vatman kağız və ya bərk kartonda olmalı, paspartuya salınmalı, rəsmlərin arxasına asılqan və ya ilgək (petlə) bərkidilməlidir.

**Dekorativ tətbiqi-sənət**

- Festivala dekorativ tətbiqi-sənətin müxtəlif növləri üzrə işlər təqdim oluna bilər (məs. xalçaçılıq, dulusçuluq, bədii tikmə, qurama, vitraj və s.);
- Hər bir iştirakçı seçdiyi dekorativ tətbiqi-sənətin növləri üzrə yalnız bir iş təqdim edə bilər;
- Təqdim edilən işlərin mövzusu, texnikası və ölçüsünün seçimi sərbəstdir;
- Digər festivallarda iştirak etmiş işlər göndərilməməlidir;
- Xalça, qobelen, batika, bədii tikmə, toxuma, tikmə, qurama və dekorativ tətbiqi- sənətin bu növlərinə aid olan işlər çərçivəyə salınmaqla təqdim edilməlidir;
- Təqdim olunan işlərin arxa hissəsinə çap olunmuş formada tərtibata xələl gətirmədən etiketlər yapışdırılmalıdır. Etiket 9x12 sm ölçüdə olmalı, üzərində iştirakçının adı, soyadı, atasının adı, yaşı, təhsil aldığı təhsil müəssisəsi, nominasiyanın adı, təqdim etdiyi iş haqqında məlumatlar Arial şrifti ilə 12 ölçüdə yazılmalıdır.

**Milli rəqs (solo)**

- Festivala hər ifaçı bir nömrə ilə qatıla bilər;
- İfa edilən rəqsin quruluşu, elementləri, hərəkətləri və geyim təqdim olunan musiqiyə uyğun olmalıdır;
- Təqdim olunan milli rəqs nömrəsi milli-ənənəvi rəqs quruluşunun nümunələrinə uyğun olmalıdır;
- Musiqi CD və ya flash kartda təqdim edilməlidir;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Müasir rəqs (solo)**

- Festivala hər ifaçı bir nömrə ilə qatıla bilər;
- İfa edilən rəqsin quruluşu, elementləri, hərəkətləri və geyim təqdim olunan musiqiyə uyğun olmalıdır;
- Musiqi CD və ya flash kartda təqdim edilməlidir;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Səhnə ifaçılığı (aktyorluq, bədii qiraət, hekayəçilik)**

- Dünya və ya Azərbaycan ədəbiyyatı nümünələrindən hər hansı əsərə aid bir parça və ya şeir ifa edilə bilər;
- İştirakçı istənilən janr və mövzuda iştirak edə bilər (ədəbi musiqili kompozisiya, pantomima, miniatür, etüd və s.);
- Fon musiqisinin olması tövsiyə olunur. Fon musiqisi olduğu təqdirdə, CD və ya flash kartda təqdim edilməlidir;
- Səhnə ifaçılığı zamanı geyim formasının təqdim olunan mövzuya (əsərə və ya janra) uyğun olması tövsiyə olunur;
- Çıxış zamanı səhnə tərtibatı və rekvizitlərin əsərə uyğun olması tövsiyə olunur;
- Hekayəçilik janrında çıxış edən iştirakçı hekayənin müəllifi özü olmalıdır;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Piano ifaçılığı**

- Dünya və ya Azərbaycan klassik musiqi nümunələrindən bir əsər təqdim edilməlidir (estrada və ya kino musiqisi qəbul olunmur);
- Səliqəli geyim forması tövsiyə olunur;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Azərbaycan xalq çalğı simli alətləri ifaçılığı (tar, saz, kamança, ud, qanun)**

- Hər hansı muğamdan bir hissə, Azərbaycan klassik musiqisi və ya folklor nümunələrindən bir əsər təqdim edilməlidir;

- Səliqəli geyim forması tövsiyə olunur;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Azərbaycan xalq çalğı nəfəs alətləri ifaçılığı (zurna, balaban, tütək)**

- Hər hansı muğamdan bir hissə, Azərbaycan klassik musiqisi və ya folklor nümunələrindən bir əsər təqdim edilməlidir;
- Səliqəli geyim forması tövsiyə olunur;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Azərbaycan xalq çalğı zərb alətləri ifaçılığı (nağara, qoşa nağara, qaval, dəf və.s)**

- Hər hansı muğamdan bir hissə, Azərbaycan klassik musiqisi və ya folklor nümunələrindən bir əsər təqdim edilməlidir;
- Səliqəli geyim forması tövsiyə olunur;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Qarmon ifaçılığı**

- Hər hansı muğamdan bir hissə, Azərbaycan klassik musiqisi və ya folklor nümunələrindən bir əsər təqdim edilməlidir;
- Səliqəli geyim forması tövsiyə olunur;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Heykəltəraşlıq**

- İştirakçının təqdim etdiyi heykəlin materialı polyester, tunc, bürünc, mərmər, papye-mase, plastilin, gil, gips ola bilər;
- Təqdim olunan heykəlin ölçüsü 20 sm-dən yuxarı olmalıdır və dayağı olmalıdır;
- Təqdim olunan işin janr və mövzusu sərbəstdir;
- Təqdim olunan heykəlin aşağı hissəsinə çap olunmuş formada tərtibata xələl gətirmədən etiketlər yapışdırılmalıdır. Etiket 9x12 sm ölçüdə olmalı, üzərində iştirakçının adı, soyadı, atasının adı, yaşı, təhsil aldığı təhsil müəssisəsi, nominasiyanın adı, təqdim etdiyi iş haqqında məlumatlar Arial şrifti ilə 12 ölçüdə yazılmalıdır.

**Estrada oxuma**

- Seçilmiş əsər estrada janrında olmalıdır və repertuar düzgün seçilməlidir (Azərbaycan və dünya musiqi nümunələri);
- Canlı ifa (minusla və ya akapella) olmalıdır;
- İfa ilə səhnə görünüşü uyğunluq təşkil etməlidir;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Akademik vokal**

- Dünya və ya Azərbaycan klassik musiqi nümunələrindən əsərlər (canlı müşayiət, minus ilə və akapella ifaya icazə verilir) təqdim edilməlidir;
- Səliqəli geyim forması tövsiyə olunur;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Xanəndəlik sənəti**

- İştirakçı hər hansı muğamdan bir hissə, təsnif və ya xalq mahnısı ifa edə bilər;
- Müşayiət canlı (1-3 nəfər) və ya minus ilə ola bilər;
- İştirakçı xanəndəyə uyğun geyim formasında olmalıdır;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Aşıq sənəti (sazda ifa və oxumaq)**

- İştirakçı canlı şəkildə aşıq havası oxumalı və sazda ifa etməlidir;
- İştirakçı aşığa uyğun geyim formasında olmalıdır;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Klassik simli alətlər ifaçılığı**

- Dünya və ya Azərbaycan klassik musiqi nümunələrindən bir əsər təqdim edilməlidir (estrada və ya kino musiqisi qəbul olunmur);

- Səliqəli geyim forması tövsiyə olunur;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Klassik nəfəs alətləri ifaçılığı**

- Dünya və ya Azərbaycan klassik musiqi nümunələrindən bir əsər təqdim edilməlidir (estrada və ya kino musiqisi qəbul olunmur);
- Səliqəli geyim forması tövsiyə olunur;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Caz ifaçılığı**

- Caz üslubunda bir kompozisiya təqdim edilməlidir;
- Səliqəli geyim forması tövsiyə olunur;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Rəqəmsal incəsənət ("Azərbaycan mədəniyyəti" mövzusunda video, foto)**

- Təqdimatla çıxış etməli, təqdimatda foto və videolar, eyni zamanda mətnlərdən istifadə etmək olar.
- Təqdimatın müddəti 5 dəqiqədən artıq ola bilməz;
- Təqdimat daxilində 10-20 aralığında slayd olmalıdır;
- Hazırlanmış təqdimat PDF formatında 30 mart - 15 aprel tarixləri aralığında iştirakçının adı və qeydiyyat zamanı verilən identifikasiya kodu qeyd olunmaq şərtilə ***info@uif.az*** elektron ünvanına göndərilməlidir. Emailin mövzu hissəsində "Rəqəmsal incəsənət" qeyd olunmalıdır.

## KOLLEKTİV NOMİNASİYALAR HAQQINDA MƏLUMAT

**Xor**

- Dünya və ya Azərbaycan klassik musiqi nümunələrindən bir əsər təqdim edilməlidir;
- Kollektiv iştirakçılarına səliqəli geyim forması tövsiyə olunur;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Caz ifaçılığı**

- Caz üslubunda bir kompozisiya təqdim edilməlidir;
- Kollektiv iştirakçılarına səliqəli geyim forması tövsiyə olunur;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Milli rəqs ansamblı**

- Festivala hər kollektiv bir nömrə ilə qatıla bilər;
- İfa edilən rəqsin quruluşu, elementləri, hərəkətləri və geyim təqdim olunan musiqiyə uyğun olmalıdır;
- Təqdim olunan milli rəqs nömrəsi milli-ənənəvi rəqs quruluşunun nümunələrinə uyğun olmalıdır;
- Musiqi CD və ya flash kartda təqdim edilməlidir;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Müasir rəqs ansamblı**

- Festivala hər kollektiv bir nömrə ilə qatıla bilər;
- İfa edilən rəqsin quruluşu, elementləri, hərəkətləri və geyim təqdim olunan musiqiyə uyğun olmalıdır;
- Musiqi CD və ya flash kartda təqdim edilməlidir;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

**Bal rəqsi**

- Festivala hər kollektiv bir nömrə ilə qatıla bilər;
- Rəqs nömrələri bal rəqslərinin texnikasına uyğun təqdim olunmalıdır (vals, tanqo, fokstrot, kvikstep, samba, ça-ça-ça, rumba, cayv);
- İfa edilən rəqsin quruluşu, elementləri, hərəkətləri və geyim təqdim olunan rəqs nömrəsinə uyğun olmalıdır;
- Musiqi CD və ya flash kartda təqdim edilməlidir;
- İfa müddəti 3-5 dəqiqə olmalıdır.

## FESTİVALIN KATİBLİYİNİN ƏLAQƏ VASİTƏLƏRİ

147 (+994 50) 288-0147 info@uif.az